

# Türk gəncliyi Nizami dühası zirvəsində

**Mütəfəkkir şairimiz Nizami Gəncəvinin qoyub getdiyi mənəvi sərvət – aktuallığını itirməyən əsərləri həmişə diqqətdədir və lazımınca təbliğ olunur. Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyi ilə Dünya Gənc Türk Yazarlar Birliyi (DGTYB) tərəfindən həyata keçirilən "Nizami Gəncəvi dühası Türk dünyası gənclərinin gözü ilə" layihəsi çərçivəsində çap olunmuş "Türk dünyası gəncləri – Nizami Gəncəvi dühası" kitabının və eyni adlı sosial çarxın təqdimatı bu fikri bir daha təsdiqlədi.**

DGTYB-nin sədri, layihə rəhbəri İntiqam Yaşar iştirakçılara kitab haqqında məlumat verərək Nizami irsini Türk dövlətlərinin ortaq dəyəri adlandırdı. Qeyd etdi ki, sözügedən layihə çərçivəsində Türkiyə və Azərbaycan gəncliyi nümayəndələrinin əməkdaşlıq münasibətləri daha da genişlənib.

Deputat Cavanşir Feyziyev bildirdi ki, Nizami Gəncəvi təkcə şair deyil, həm də Azərbaycan xalqının milli-mədəni varlığının simvoludur. Milli Məclisin Mədəniyyət komitəsinin eksperti, şair-publisist Əkbər Qoşalı Nizami Gəncəvini özündən əvvəlki və sonrakı ədəbiyyatı şəkilləndirən qala bürcü adlandırdı. Yeni kitab N.Gəncəvini fars şairi kimi təqdim etmək istəyənlərə tutarlı cavab kimi dəyərləndirildi.

Filologiya üzrə fəlsəfə doktoru Səadət Şıxıyeva "Xosrov və Şirin" əsərinin ermənilər tərəfindən mənimsənilməsi, Şirinin milli kimliyi ilə bağlı iddialara toxundu: "Tarixdə ermən, ərmənzəmin olan yer, təəssüf ki, Ermənistan kimi qələmə verilib. Əslində, Nizami oranı mərkəzi Bərdə olan bir dövlət kimi göstərib".

Yazıçı Kənan Hacı, şair-publisist Fərid Hüseyn, filologiya elmləri üzrə fəlsəfə doktoru Nəzakət Məmmədli, şərqşünas-yazıçı Əli Rzazadə və digərləri də kitabın məziyyətləri haqda fikirlərini bölüşdülər. Sonda kitabın və videoçarxın ərsəyə gəlməsində zəhməti olan gənclər diplomlarla təltif olundular. Eyni zamanda, iştirakçılara "Türk dünyası gəncləri – Nizami Gəncəvi dühası" kitabı hədiyyə edildi.

***Rizvan FİKRƏTOĞLU,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.-2022.- 8 dekabr.- S.9.